LEX IN THE SYSTEM OF SOURCES OF LAW

Habil Gurbanov [1]

UDC 34:340.14
KBT 67.4

Keywords:

Sources of law
Classification
International law
Lex
Legal systems
State

ABSTRACT

The author notes that the lex, which is an external form of expression of law, must be expressed and approved in its source in an appropriate and formal way, and it is not the only one in the system of sources of law. The main types of effective law are determined on the basis of certain methods of forming its sources. As an integral part of law, it exists in most sources of the legal systems of modern states and governs these sources, that is, the lex is the first source of law.

The ongoing integration processes in the world further strengthen the role of international law, penetrating into the space of international treaties and the hierarchy of sources of domestic law. In conclusion, it is said that one of the most important issues in Azerbaijan is the resolution of the issue of compliance of international treaties and agreements with the Constitution of the country.

[1]. The chairman of the Free Trade Union of ANAS. Doctor of law sciences, professor,
professorqurbanov@yandex.com
Received: 26.05.2021
Accepted: 07.06.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 2, Sıra 4, 2021, 9-17

QANUN HÜQUQUN MƏNBƏLƏRİ SİSTEMİNDƏ

Habil Qurbanov[1]

UOT 34:340.14
KBT 67.4

Açar sözlər:

Hüququn mənbələri
Təsnifat
Beynəlxalq hüquq
Qanun
Hüquq sistemləri
Dövlət

ANNOTASİYA

Müəllif qeyd edir ki, hüququn zahiri ifadə forması olan qanun onun mənbəyində müvafiq suratdə və formal olaraq ifadə və təsbit edilməlidir və hüququn mənbələri sistemində o, yeganə deyildir. Qüvvədə olan hüququn əsas növləri o mənbələrin formalaşmasının müəyyən yolları əsasında təsbit edilirlər. Qanun dəyişilməz tərkib hissə qismində müasir dövlətlərin hüquq mənbələri sisteminin əksəriyyətində mövcuddur və həmin mənbələrə başçılıq edir, yəni məhz qanun hüquqün birinci mənbəyidir.

Dünyada gedən inteqrasiya prosesləri beynəlxalq müqavilələr məkanına və dövlətdaxili hüququn mənbələri iyerarxiyasına nüfuz etməklə beynəlxalq hüququn rolunu daha da artırır. Yekun olaraq Azərbaycanda mühüm məsələlərdən biri kimi beynəlxalq müqavilə və sazişlərin ölkə Konstitusiyasına uyğunluğunun həll edilməsindən bəhs edilir.

[1]. AMEA Azad Həmkarlar İttifaqının sədri, h.ü.e.d., professor
professorqurbanov@yandex.com
Məqalə redaksiyaya daxil olmuşdur: 26.05.2021
Təkrar işlənməyə göndərilmişdir: 31.05.2021
Çapa qəbul edilmişdir: 07.06.2021

ЗАКОН В СИСТЕМЕ ИСТОЧНИКОВ ПРАВА

Габил Курбанов[1]

УДК 34:340.14
КВТ 67.4

Ключевые слова:

Источники права
Классификация
Международное право
Закон
Правовые системы
Государство

АННОТАЦИЯ

Автор отмечает, что закон, который является внешней формой выражения права, должен быть выражен и утвержден в его источнике надлежащим и формальным образом, и кроме того, он не является единственным в системе источников права. Основные виды действующего права определяются на основе определенных способов формирования его источников. Как неотъемлемая часть права, он существует в большинстве источников правовых систем современных государств и руководит этими источниками, то есть закон является первым источником права.

Продолжающиеся в мире интеграционные процессы еще больше усиливают роль международного права, проникая в пространство международных договоров и иерархию источников внутригосударственного права. В заключение говорится, что одним из важнейших вопросов в Азербайджане, является разрешение вопроса о соответствии международных договоров и – Конституции страны.

[1]. Д. ю. н., профессор, председатель Независимого, Профсоюза работников НАНА
professorqurbanov@yandex.com

GİRİŞ

Hüququn zahiri ifadə forması olan qanun onun mənbəyində müvafiq surətdə və formal olaraq ifadə və təsbit edilməlidir. Əlbəttə ki, hüququn mənbələri sistemində o, heç də yeganə deyildir. Unutmaq olmaz ki, hüququn mənbəyinin formal-hüquqi izahı ilk başlanğıcda onu bilavasitə qanunla bağlamışdır. Başqa sözlə, hüququn mənbəyi kimi qanunu hüquqla bağlayan mühüm amillərdən biri məhz bu olmuşdur. Eramızın başlanğıcında məşhur hüquqşünas Tit Livinin məhz Romanın "XII Cədvəl Qanunları"nı "bütün ümumi və xüsusi hüququn mənbəyi" adlandırdığı vaxt yurisprudensiyaya Roma hüququndan keçmiş anlayışların mənşəyini xatırlatmaq kifayətdir. Beləliklə, tarixdə ilk dəfə Qədim Romada qanun hüququn mənbələrindən biri kimi tanınmışdır. (1,38)

Hüququn mənbələrini formalaşdıran istiqamət və üsullar eyni deyildir, onların ayrı-ayrı növlərinin spesifikliyi müxtəlif cəmiyyət və sivilizasiyaların inkişaf xüsusiyyətləri, dövlətçiliyin forma və tipləri ilə uzlaşır. Qüvvədə olan hüququn əsas növləri onun mənbələrin formalaşmasının aşağıdakı yolları əsasında (qeyd etmək lazımdır ki, növlərin yaradılması və təsbit edilməsində iştirak edən qanun aşağıda sadalanan növlərin hamısında praktiki olaraq iştirak edir) təsbit edilirlər:

1) legitim hüquq bilavasitə xalqın iradə ifadəsi ilə hüquqi aktların layihələri üzrə səsvermə və ya soğru şəklində təsis edilir (xalq yığıncaqlarının qərarı; referendumların keçirilməsi; plebistit);

2) adət hüququ dövlət tərəfindən onun özü üçün münasib və faydalı olan, vərdişlər əsasında təşəkkül tapmış davranış qaydalarının sanksiyalaşdırılmasının köməyilə formalaşdırılır, çünki bunlar uzun müddət qüvvədə olan və əhaliyə təsir göstərən, habelə daim təkrarlanan vərdişlərdir;

3) dini hüquq kanonik normaların rəsmi qanunvericilik qismində dövlət tərəfindən onun teokratik və ya klerikal istiqamətinin təsbit edilməsi əsasında rəsmiləşdirilir. Dini hüquq kilsəyə və onun institutlarına, habelə dövlət-hüquqi siyasətə yüksək səviyyədə (özünün ilkin formalaşma mərhələsində) təsir göstərir;

4) qanunvericilik hüququ ümumi hakimiyyətin hüquqyaratma orqanları tərəfindən öz səlahiyyətləri daxilində normativ-hüquqi aktların qəbul edilməsi yolu ilə müəyyən olunur;

5) presedent hüququ konkret işlər üzrə məhkəmə qərarlarına ümumməcburi qüvvə verilməsi yolu ilə yaradılır (belə məhkəmə qərarlarına analoji situasiyalarda əməl etmək vəzifəsi yaranır);

6) müqavilə hüququ qarşılıqlı hüquq və vəzifələrin tərəflər arasında hüquq normaları qismində müəyyən edilməsi ilə sazişlərin dövlət tərəfindən tanınması yolu ilə yaradılır;

7) doktrinal hüquq dövlət hakimiyyəti tərəfindən hüquqi anlayışlar və kateqorial konstruksiyalar yaradan hüquqşünasların hüquq haqqında fikirlərinə rəsmi məna verilməsi əsasında yaranır;

8) interpretasiyalı-hüquq, o cümlədən ölkənin konstitusiya məhkəməsi tərəfindən qanunvericiliyin rəsmi təfsiri prosesi nəticəsində hüququn mənbəyi formasını alan hüquq;

9) implementasiyalaşdırılmış hüquq qüvvədə olduğu ərazidə (öz ərazisində) dövlətdaxili hüquqa transformasiya olunma yolu ilə beynəlxalq hüquq normalarının tətbiqinin dövlət tərəfindən müəyyən edilmiş qaydasını əks etdirir.

Hüququn mənbələrinin təsnifatı və iyerarxiyası. Fransız hüquqşünası J.L. Berjel elə hesab edirdi ki, hüququn mənbələri artıq formalaşma proseslərinin spesifikliyi nəticə-

sində eynicinsli olmurlar. Müəllif onların aşağıdakı mümkün təsnifatını verir:

1) rəsmiləşdirilməsinə (təsbitinə)görə – yazılı (beynəlxalq müqavilələr) və təsbit edilməmiş (adət və ənənələr) mənbələr;

2) ilkinliyinə görə – düzünə (konstitusiyalar) və dolayı (məhkəmə təcrübəsi və ya qanunun təfsiri) mənbələr;

3) dövlət hakimiyyəti ilə əlaqəsinə görə – rəsmi (formal qayadalar doğuran) və qeyrirəsmi (bəzən qüvvədə olan davranış qaydasına paralel olan normalar doğuran) mənbələr;

4) göstərişin formasına görə – göstərişli (ümumi hakimiyyətin səlahiyyətli orqanından gələn) və öz-özünə əmələ gələn (müəyyən sosial qrupun fərqləndirdiyi) mənbələr.

Bu təsnifatda qanun özündə yazılı, düzünə (birbaşa), *rəsmi* və göstərişli mənbəyi təsbit edir ki, bu da artıq onu müasir dövrün müxtəlif hüquq sistemlərində onlarla özünəbənzər mənbələrdən fərqləndirir. Hüquqi tənzimetmədə onların real mövqeyi və rolu təşəkkül tapmış iyerarxiya ilə müəyyən edilir. Həmin iyerarxiyanı hüquqi formada ifadə olunan amillərin şərtləşdirilmiş məcmusu kimi təsəvvür etmək olar.

Hüququn mənbələrinin *iyerarxiyasını* aşağıdakılar müəyyən edir:

1) dövlət-təşkilati cəmiyyətin razılaşdırılmış iradəsinin bilavasitə ifadə dərəcəsi;

2) hüquq normalarının ümumilik (mücərrədlik) dərəcəsi;

3) tənzim edilən ictimai münasibətlərin əhəmiyəti (vacibliyi);

4) normativ-hüquqi aktların kompleks xarakteri (məcəllələşdirilmiş hüquqi aktlar digər – sadə normativ-hüquqi aktlar qarşısında üstünlüyə malikdirlər);

5) bu və ya digər normativ-hüquqi aktı qəbul edən orqanların normayaratma səlahiyyətlərinin bilavasitəliyi (yəni normalar yaratmağa bilavasitə səlahiyyətli olan orqanlar);

6) səlahiyyətlərin üstün xarakteri. (1,168-194)

Qanun hüququn əsas mənbəyi kimi. Yuxarıda sadalananlar bütün göstəriciləri üzrə həm də hüququn digər mənbələrindən yüksəkdə duran qanunun üstünlüyünü nəzərdə tutur. Qanun dəyişilməz tərkib hissə qismində müasir dövlətlərin hüquq mənbələri sisteminin əksəriyyətində mövcuddur və hər şeydən əvvəl, həmin mənbələrə başçılıq edir. Yəni məhz qanun hüquqün birinci mənbəyidir. Qanun öz spesifik xarakteristikalarına görə hüququn digər mənbələrindən aşağıdakı xüsusiyyətləri ilə fərqlənir:

1) cəmiyyətin və dövlətin mənafelərini əksetdirmə dərəcəsinə görə – çünki qanun müxtəlif sosial maraqların razılaşdırılmış nəticəsi kimi xalqın iradəsini normativcəsinə ifadə edir;

2) formasına görə – qanun baza aktı, ilkin normativ-hüquqi aktdır (məsələn, o, törəmə ixtisaslaşdırılmış qanunqüvvəli aktlardan fərqlənir; qanunqüvvəli aktlar qanuna uyğun olmalı, olmadıqda ya onlara düzəlişlər edilməli, ya da ləğvedilməlidirlər);

3) hüquqi qüvvəsinə görə – qanun ən yüksək hüquqi qüvvəyə malik aktdır (qalan bütün aktlar qanun əsasında verilməli, qanundan irəli gəlməli və qanuna zidd olmamalıdırlar; əks təqdirdə onlar ya qanuna uyğunlaşdırılmalı, dəyişdirilməli, ya da ləğvedilməlidirlər);

4) qəbul edən orqana görə – belə orqan qismində xalq, yaxud xalqı təmsil edən qanunvericilik orqanı (parlament) çıxış edir (yəni qanun bilavasitə və ya dolayısı ilə vətəndaşların iradə ifadəsi ilə qəbul olunur);

5) qəbul olunma proseduruna görə – bu, adətən, ölkə konstitusiyası ilə və (və ya) xüsusi qanunlarla (bir sıra dövlətlərdə konstitusiya qanunları ilə), habelə qanunverici orqanın

(parlamentin) palatalarının reqlamenti ilə şərtləşdirilir və qanunyaratma prosesinin məcburi prosedurlarını nəzərdə tutur;

6) qüvvə sferasına görə – qanun *ölkənin bütün ərazisinə* şamil olunur və həmin ərazidə əhalinin hamısı üçün eyni dərəcədə qüvvədə olur;

7) qüvvədə olma müddətinə görə – qanun öz müddəalarının *ən yüksək sabitliyi* ilə xarakterizə olunur;

8) tənzimetmə predmetinə görə – qanun ictimai həyatın və dövlət həyatının ən mühüm sahələrini əhatə edir; bu, bəzən konstitusiyada və (və ya) xüsusi qanunlarda nəzərdə tutulur.(2,119)

Qanun vasitəsi ilə tənzim edilməli olan məsələlərin dairəsinə (ancaq həmin məsələlər fərmanların, qərarların və digər qanunqüvvəli aktların predmeti olmalıdırlar) aşağıdakılar aid edilir:

1) əsas hüquq və azadlıqlar da daxil olmaqla, vətəndaşların hüquqi statusu, hüquq və azadlıqların mühafizə və müdafiə üsulları, vətəndaşların hüquqi məsuliyyəti və hüquq pozuntusuna yol verən şəxslərə dövlətin məcburiyyət tədbirinin tətbiqi;

2) siyasi partiyaların, ictimai birliklərin və digər vətəndaş təşkilatlarının təşkili və fəaliyyətinin şərtləri;

3) qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının təşkili və iş qaydası;

4) konstitusiya qaydası məsələləri;

5) vergilərin bütün növlərinin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ləğv edilməsi;

6) yurisdiksiyalı qanunvericilik (cinayət qanunvericiliyi, cəza-prosessual qanunvericilik; cinayət-icra qanunvericiliyi; mülki-prosessual qanunvericiliyi və inzibati qanunvericilik; məhkəmə quruluşu, prokurorluq, vəkillik və digər hüquq-mühafizə orqanları haqqında qanunvericilik);

7) ailə qanunvericiliyi;

8) kütləvi informasiya vasitələrinin hüquqi statusu.

Xarici ölkələrin bəzilərinin konstitusiya aktlarında müstəsna surətdə qanunvericiliklə tənzim edilməli olan sahələr analoji qaydada müəyyənləşdirilir. Məsələn, Almaniya Federativ Respublikası (AFR) Konstitusiyasının 73-cü maddəsində deyilir:

"Federasiyanın aşağıdakı sahələrində müstəsna qanunvericilik səlahiyyətləri vardır:

1) xarici əlaqələr, habelə milli müdafiənin təşkili və mülki əhalinin qorunması;

2) Federasiyanın vətəndaşlığı;

3) səyahətetmə azadlığı, emiqrasiya və imiqrasiya, cinayətkarların (ekstradisiyası) geri verilməsi;

4) valyuta, pul tədavülü, emissiya, ölçü və çəki rejimləri, dəqiq zaman vaxtının (saatının) təyin edilməsi;

5) Federasiyanın federal dəmir yolları və hava yolları;

6) poçt, teleqraf, telefon, radio;

7) Federasiya və əyalətlərin əməkdaşlığı;

a) cəza polisi sahəsi;

b) azad demokratik quruluşun, Federasiya və ya hər hansı əyalətin varlıq və təhlükəsizliyinin müdafiəsi (konstitusiya müdafiəsi) sahəsi;

c) Federasiyanın ərazisində baş verə biləcək və Almaniya Federativ Respublikasının xarici mənafelərini təhdid edəcək zor işlətməyə qarşı və ya zor işlətməyə hazırlığa qarşı müdafiə sahəsi, habelə federal cəza polisinin yaradılması və beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində;

8) Federasiyannn məqsədləri üçün statistika".

Əlbəttə, müasir dövlətlərdə hüququn mənbələrinin sistemi onların sivil əlaqələri, hüquq ailələrinin nüəyyən qrupuna mənsubiyyəti, idarəçilik forması və dövlət quruculuğu, tarixi xüsusiyyətlər və adət-ənənələr, milli mədəniyyət, dövlətin rəsmi strukturunda dinin yeri və rolu nəzərə alınmaqla qurulur. Bu cəhətdən dünya dövlətləri arasında bəzi oxşarlıqlarla yanaşı, əsaslı fərqlər də mövcuddur.

Əgər söhbət qanunların normativliyini və ümumməcburiliyini tanıyan ölkələrin hüquq sistemləri haqqında gedirsə, qanunun əvəzinə kilsə kanonları (dini qanunlar) qəbiləicma adət-ənənələri buna iddialı ola bilərlər. Sosialist adlandırılan ölkələrin hüquq sistemində qanunlar deyil, partiya-inzibati qərar və göstərişlər hökmranlıq edir. Bu dövlətlərin demək olar ki, bütün dövlət strukturları, o cümlədən hüquq-mühafizə orqanları dövlətin qəbul etdiyi qanunları deyil, partiyanın direktivlərini rəhbər tutaraq, hüququn və qanunun müddəalarına məhəl qoymadan fəaliyyət göstərirlər. Həm də çox yaxşı dərk edirlər ki, partiyanın qərar və göstərişlərini yerinə yetirməmək, yaxud onları icra etməkdən qəsdən, biləbilə yayınmaq qanunların sanksiyalarında nəzərdə tutulmuş cəzalardan daha artıq nəticələrə gətirib çıxarır.

Hüququn mənbələri sistemində tarixən aparıcı mövqeyi olan ingilis-Amerika dövlətlərinin hüququnda hakimlərin hüquqyaratma fəaliyyətinin (məhkəmə presedentinin) nəticəsi kimi çoxillik məhkəmə təcrübəsi özünü doğrultmuşdur. Belə bir spesifik cəhəti qeyd etmək zəruridir ki, məhz məhkəmə presedenti praktikasında hakimlərin müstəqilliyi bütün dolğunluğu ilə üzə çıxır. Bundan başqa, məhkəmə presedenti praktikası hakimə tam sərbəstlik verməklə yanaşı, onun daxili inamının və sosial düşüncəsinin bütün çalarları ilə təzahür etməsini şərtləşdirir. Belə praktika gedişində hakim qanunun tələblərinə əməl etməklə eyni vaxtda bilavasitə özü qanunyaratmanın subyekti qismində çıxış edir və eyni zamanda da mövcud qanunların təkmilləşdirilməsinə yaxından kömək etmiş olur. Məhz bu nöqteyinəzərdən keçən yüzilliyin sonlarına doğru roman-german hüquq sisteminə daxil olən ölkələrin bəzisində, o cümlədən Azərbaycanda da məhkəmə presedenti praktikasının tətbiqi ölkə yurisprudensiyası üçün məqbul hesab edilmişdir. Lakin naməlum səbəblərdən bu məsələ artıq unudulmuşdur. Ancaq hələ indinin özündə də həm elmi ədəbiyyatda, həm də dərsliklərdə və digər tədris vəsaitlərində dünyanın hüquq sistemlərinin fəaliyyətində bir-birinə yaxınlaşma meylləri haqqında söhbətlər səngimək bilmir.

Beynəlxalq müqavilə və dövlətdaxili qanun. Dünyada gedən inteqrasiya prosesləri beynəlxalq müqavilələr məkanına və dövlətdaxili hüququn mənbələri iyerarxiyasına nüfuz etməklə beynəlxalq hüququn rolunu daha da artırır. Həmin proses ən azı qitə (Avropa) hüququ üçün reallıqdır. Qitə hüququnun mənbələr iyerarxiyasında beynəlxalq müqavilə dövlətlərin konstitusiyasının ardınca addımlayan qanunu sıxışdırmağa başlamışdır. Bununla belə, həmin ənənənin aşağıdakı məzmunda şərhə ehtiyacı vardır.

I.İstisnasız olaraq bütün aktlara, o cümlədən beynəlxalq müqavilələrə münasibətdə yüksək hüquqi qüvvəyə malik olan konstitusiya dövlətin həmişə əsas Qanunu qismində tanınmış və onun ilkin normalarını tənzimləyən qanun olaraq qalmaqdadır. Deməli, dövlət tərəfindən bağlanmış müqavilələr onun əsas qanunundan yüksək və ya ona zidd ola bilməzlər. Bu, konstitusiyaların mətnində də yazılmışdır. Məsələn, İspaniyanın Konstitusiyasında qeyd olunur ki, müəyyən edilmiş tələblərə uyğun bağlanan beynəlxalq müqavilələr onların ölkədə rəsmi dərc edilməsindən sonra daxili qanunvericiliyin tərkib hissəsi olurlar. Lakin elə həmin Konstitusiyanın 95 (1-ci) maddəsində xüsusi olaraq qeyd-şərt edilir ki, "özündə Konstitusiyaya zidd müddəaları ehtiva edən bağlanmış beynəlxalq müqavilələr Konstitusiyanın qabaqcadan yoxlaması olmadan özünə yer edə bilməz».

Fransanın Konstitusiya Şurası Avropa İttifaqı ilə saziş məsələsi üzrə, o cümlədən aşağıdakıları bəyan etmişdir: "Maastrixt müqaviləsi özündə Fransa Konstitusiyasına zidd olan müddəa ehtiva etdiyinə görə, onun ratifikasiya edilməsinədək Konstitusiyaya müvafiq dəyişikliklərin edilməsi zəruridir". Rusiya Federasiyası Konstitusiyasının 125-ci maddəsində isə təsbit edilir ki, "Rusiya Federasiyasının Konstitusiyası qüvvəyə minməmiş müqavilənin və ya onun

müddəasının Konstitusiyaya uyğun olmadığını hesab edə bilər... və o, qüvvəyə minə və tətbiq edilə bilməz".

2. Konstitusiyaya düzəlişlər, dəyişikliklər və əlavələr edilməsi ilə bağlı tətbiq edilən qanunlar da beynəlxalq müqavilələrlə qarşılıqlı əlaqədə prioritetə malikdirlər (belə mövqe heç də hamı tərəfindən dəstəklənməsə də, qanun nəzəriyyəsi həmin problemə dair hələ vahid yanaşma işləyib hazırlamamışdır). Məsələn, Ukraynada hüququn mənbələri sisteminin birinci pilləsini müvafiq surətdə konstitusiya, konstitusiya qanunu, Ali Rada tərəfindən ratifakasiya edilmiş beynəlxalq müqavilə və adi qanun tutur. Eyni zamanda, Polşa Konstitusiyasının 87-ci maddəsi "Polşa Respublikasının Konstitusiyasını, qanunlarını, ratifikasiya edilmiş beynəlxalq müqavilələrini, habelə sərəncamları ümumməcburi hüququn mənbələri" kimi təsbit edir.

3. Digər qanunlara münasibətdə onları beynəlxalq müqavilənin tələbləri tabeliyində olan qanunlar hesab etmək hamılıqla qəbul olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsində deyilir: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yarandıqda, həmin beynəlxalq müqavilələr tətbiq edilir". (3,45)

Lakin belə müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya və qanun qismində təsdiq edilməlidir. Belə prosedur qayda Azərbaycan Respublikasının qanunvericiliyi tərəfindən müəyyən edilir. Azərbaycan Respublikasının "Beynəlxalq müqavilələr haqqında" Qanunu belə hesab edir ki, hər cür beynəlxalq müqavilə deyil, barəsində yalnız qanun formasında ratifikasiyanın ifadə edildiyi müqavilə qanun qarşısında prioritetə malikdir.

NƏTİCƏ

Azərbaycanda digər mühüm məsələlərdən biri beynəlxalq müqavilə və sazişlərin ölkə Konstitusiyasına uyğunluğunun həll edilməsidir. Belə səlahiyyət ölkənin Konstitusiya Məhkəməsinə verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 6-cı bəndinə əsasən "Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu" məsələsini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi həll edir. (3,36)

Bir sıra dövlətlərin, o cümlədən Avropa İttifaqının üzvü olan dövlətlərin qanunvericiliyində Avropa İttifaqının millətlərüstü orqanları tərəfindən qəbul olunan qərarların dövlətdaxili qanunlar qarşısında prioritetinin olduğu xüsusi olaraq qeyd edilir. Belə beynəlxalq aktlar içərisində sərəncam və ya reqlamentlər Avropa İttifaqının üzvü olan ölkələrin vətəndaşlarına, yəni onlardan bilavasitə istifadə edən adresatlara ünvanlanmışdır. Digər aktlar – çərçivə göstərişləri və ya direktivləri dövlətlərə ünvanlanır və bunlar implementasiya tələb edən model qanunvericilikdən ibarətdir. Məsələn, alman hüququnun tədqiqatçıları A.E.Jalinski və A.A.Rerixtin qeyd etdiyi kimi, bu zaman "milli məhkəmələr İttifaq qanunvericiliyinin bütün maraqlı dövlətlər üçün bərabər olduğunu və onun kimə isə üstünlük vermədən eyni cür tətbiq edilib-edilmədiyini yoxlamaqla haqlıdırlar". (4,84)

Əgər müxtəlif dövlətlərin hüquq mənbələri sistemində beynəlxalq müqavilələrin və ya sazişlərin qarşılıqlı əlaqəsinə diqqət yetirilərsə, onların qarşılıqlı əlaqəsində artıq təşəkkül tapmış ümumiləşdirilmiş iyerarxiyanın olduğunu xüsusi ədəbiyyatdan (B.İ.Osminin) görmək olar:

1) konstitusiyaya və ya konstitusiya normalarına bərabər tutulan qanunlar da daxil olmaqla, beynəlxalq müqavilənin dövlətdaxili hüquq üzərində üstün olduğu dövlətlər (Niderland, Avstriya, Argentina, Braziliya, Meksika);

2) cari qanunların verilməsi vaxtından asılı olmayaraq, beynəlxalq müqavilənin bütün cari qanunvericilik qarşısında prioritetə malik olduğu dövlətlər (Fransa, Polşa, Rusiya);

3) beynəlxalq müqavilənin ancaq əvvəlki qanunlara münasibətdə üstün olduğu dövlətlər (AFR, ABŞ), aktın zamana görə qəbulunun daha geç üstünlüyü haqqında qaydanın qüvvədə olduğu dövlət – Böyük Britaniya;

4) parlament tərəfindən bəyənilməsi faktından asılı olmayaraq, bütün qanunların beynəlxalq müqavilələr qarşısında prioritetə malik olduğu dövlətlər (Cənubi Afrika Respublikası).

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Марченко М.Н. Источники права: Учебное пособие. М., Проспект, 2012.
2. Нисневич Ю.А., Плантонов В.М., Слизовский Д.Е. Законодательная деятельность. М., 2007.
3. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2016
4. Лукьянов Е.Г. Учения о законе. М., Норма: Инфра-М, 2014.